Xalq teatrı özfəaliyyətin yüksək formasıdır

Xalq teatrlarının tarixinə nəzər saldıqda aydın olur ki, onun tarixi qədim el şənliyi, el oyunları ilə çox bağlıdır. Çox ehtimal ki, peşəkar teatrların inkişafında xalq teatrlarının rolu az olmamışdır. Bu baxımdan vaxtilə respublikamızın bir çox klub müəssisələrində xalq teatrları yaransa da bu gün mədəni-maarif müəssisələrində bu sahə azlıq təşkil edir. Fərəhlə qeyd etməliyik ki, ancaq elə mədəniyyət ocaqları vardır ki, orada nəinki bir, hətta iki xalq teatrı fəaliyyət göstərir. Belə mədəniyyət ocaqlarından biri də M.Ə.Sabir adına mədəniyyət evidir.

Mədəniyyət evinin yaranması qədim tarixə söykənir. Belə ki, bu mədəniyyət ocağı 1904-cü ildə fəhlə özfəaliyyət dərnəyi kimi fəaliyyətə başlamışdır. Balaxanı qəsəbə Cümə məscidinin binasında 1930-cu ildən 1989-cu ilə kimi klub kimi fəaliyyət göstərmişdir. M.Ə.Sabir adına Balaxanı mədəniyyət evində respublikamızın bir çox görkəmli incəsənət xadimləri, o cümlədən respublikamızın Xalq atristləri Şövkət Ələkbərova, Mirzə Babayev, Məmmədbağır Bağırzadə və başqaları çıxış etmişlər.

Mədəniyyət evinin direktoru Ramin Məmmədovla söhbət edərkən o dedi ki, hazırda mədəniyyət evində bir neçə bədii özfəaliyyət dərnəkləri, o cümlədən - poeziya teatrı, fotoqrafiya dərnəyi, rəqs, rəssam, aktyorluq kursları fəaliyyət göstərir. 2018-ci ildən etibarən isə mədəniyyət evinin nəzdində "Dərya" rəqs qrupu yaradılmışdır ki, bu qrup nəinki qəsəbənin, eyni zamanda rayon tədbirlərində də iştirak edərək qəsəbə və rayon əhalisinin rəğbətini qazanmışdır. Ramin müəllim onu da dedi ki, mədəniyyət evində özfəaliyyətin ən yüksək forması olan xalq teatrları da fəaliyyət göstərir. O qeyd etdi ki, birinci dəfə xalq teatrı burada 1967-ci ildə yaradılmışdır. Yarandığı gündən müvəffəqiyyətlə fəaliyyət göstərmişdir. Xalq teatrının göstərdiyi tamaşalar respublika müsabiqələrində, baxışlarında nailiyyətlər əldə etmiş, fəxri yerlər tutmuş və diplomlara layiq görülmüşdür. Kiçik yaşlı uşaqların bədii zövqünü formalaşdırmaq üçün M.Ə.Sabir adına Balaxanı qəsəbə mədəniyyət evində 1993-cü ildə kukla xalq teatrı da yaradılmışdır. Bu xalq teatrı fəaliyyət göstərdiyi dövrdə müsabiqə baxışların qalibi olmuş, fəxri fərmanlar və diplomlara layiq görülmüşdür.

Bundan başqa mədəniyyət evi qəsəbə əhalisinin asudə vaxtını təşkil etmək üçün müxtəlif maarifləndirici tədbirlərin də təşkilinə böyük əhəmiyyət verir.

Eyni zamanda bədii özfəaliyyət kollektivlərinin üzvləri tez-tez uşaq və qocalar evlərində, əhali arasında geniş proqramlarla çıxış edir, tanınmış əmək, sənət adamları ilə görüşlər də keçirilir.

Zabit CAVADOV,
"Respublikia".